**2026-cı ilin iyun ayı ərzində müayinə zaman sayğaca müdaxilə, habelə qanunsuz qoşulma halları aşkar edildikdə qanunvericiliklə nəzərdə tutulmuş tədbirlərin görülməsinin monitorinqinin nəticələri barədə məlumat**

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Enerji tənzimləmə və monitorinq departamentinin Müayinə və texniki xidmətin monitorinqi sektorunun əməkdaşları tərəfindən “Azəriqaz” İstehsalat Birliyi (bundan sonra - qazpaylayıcı sistem operatoru) tərəfindən qaz qurğuları və qaz xətlərinə keçirilmiş müayinə zamanı sayğaca müdaxilə, habelə qanunsuz qoşulma halları aşkar edildikdə “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun 13.8-ci maddəsində nəzərdə tutulmuş tədbirlərin görülməsinin müəyyən edilməsi məqsədilə 2026-cı ilin 02 iyun tarixindən 30 iyun tarixinədək olan müddətdə “Müayinə və texniki xidmət məlumatları üzrə Reyestr”dən toplanmış məlumatların təhlili, qiymətləndirilməsi və yoxlanılması üsulu ilə monitorinq keçirilmişdir.

Monitorinqin nəticəsinə əsasən nöqsanların aradan qaldırılması məqsədilə qazpaylayıcı sistem operatoruna icrası məcburi olan göstəriş verilmişdir.